# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin yeni binası istifadəyə verilib

***Oktyabrın 16-da Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin yeni binasının açılış mərasimi keçirilib.***

***Açılış mərasimində təhsil naziri Mikayıl Cabbarov, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, təhsil işçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Təhsil naziri Mikayıl Cabbarov çıxış edərək son illərdə təhsil sahəsində, eləcə də peşə təhsili üzrə aparılan uğurlu islahatlardan danışıb. Ölkə Prezidentinin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin peşə təhsilində həyata keçiriləcək layihələr baxımından mühüm sənəd olduğunu bildirən nazir ölkəmizdə əmək bazarının dəyişən tələblərinə uyğun kadr hazırlığı üçün belə mərkəzlərin istifadəyə verilməsinin vacibliyini qeyd edib. Təhsil naziri burada yaradılan şəraitin təhsilalanların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli imkanlar açdığını vurğulayıb və bildirib ki, yaxın gələcəkdə belə mərkəzlər digər bölgələrdə də istifadəyə veriləcək.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxışında ölkə prezidentinin rəhbərliyi altında rayonda aparılan böyük quruculuq, abadlıq işlərindən söz açıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qəbələdə beynəlxalq musiqi festivallarının, rəsm sərgilərinin keçirildiyini vurğulayıb və mərkəzin yeni binasının istifadəyə verilməsini aparılan işlərin davamı kimi dəyərləndirib. Ölkəmizin bütün regionlarında olduğu kimi inkişaf yolunda uğurla addımlayan Qəbələ rayonunda da təhsilin yüksəlişinə prioritet məsələ kimi baxıldığını, dövlət başçımız cənab İlham Əliyevin qayğısı ilə müasir təhsil müəssisələrinin tikilərək istifadəyə verildiyini, məktəblərin hər birində müasir texniki avadanlıqlar quraşdırıldığını, kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar yaradıldığını, müasir kompüter dəstlərilə təchiz edildiyini bildirib.



Səbuhi Abdullayev dövlət tərəfindən təhsilə göstərilən davamlı qayğının nəticəsi kimi qəbələlilərin çoxdan gözlədiyi və arzuladığı Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin açılmasını bu gün böyük məmnunluq hissi ilə qarşıladıqlarını vurğulayıb.




Mərasimdə çıxış edən Milli Məclisin deputatı, Respublika Ağsaqqalar Şurasının sədri Fəttah Heydərov ümummilli liderimiz Heydər Əliyev tərəfindən Azərbaycan təhsilinin inkişafına göstərilən böyük qayğının bu gün Prezident möhtərəm cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, təhsilə, elmə göstərdiyi müstəsna diqqətin güclü insan kapitalının formalaşdırılmasına xidmət etdiyini deyib. Millət vəkili bu diqqətin və qayğının nəticəsində ölkədə sosial-iqtisadi inkişafla yanaşı, elmi intellektual tərəqqiyə nail olunduğunu, dövrün tələbləri ilə uzlaşan təhsil islahatlarının həyata keçirildiyini, təhsildə mütərəqqi dünya təcrübəsinin öyrənilərək tətbiq edildiyini söyləyib.

O, təhsilin bu vacib sahəsində aparılan müsbət dəyişikliklərin- yeni peşə təhsil mərkəzlərinin yaradılmasının ölkənin davamlı inkişafına xidmət etdiyini və müasir dövrün tələblərinə uyğun ixtisaslı kadr hazırlığı baxımından peşə təhsili sahəsinə töhfə verdiyini ifadə edib.

Mərkəzin yeni binası ilə tanış olan qonaqlara məlumat verilib ki, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi iri sənaye mərkəzlərində və regionlarda optimallaşdırma prosesinin həyata keçirilməsi, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması və müasir təminatlı peşə-tədris mərkəzlərinin yaradılması çərçivəsində istifadəyə verilib. Mərkəz Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin bazasında yaradılıb.



3 mərtəbədən ibarət mərkəzdə iqtisadiyyatın prioritet istiqamətləri üzrə peşə təhsilində ixtisaslı kadr hazırlığı ilə bağlı hər cür şərait yaradılıb. Mərkəz 2,85 hektar sahədə yeni tikilmiş tədris korpusundan və 4 bölməli emalatxanadan ibarətdir. Mərkəzdə istehsalat təlim dərslərini yüksək səviyyədə həyata keçirmək üçün bütün ixtisaslara uyğun yaradılmış emalatxanalar lazımi avadanlıqla təchiz olunub. Mərkəzdə kiçik təlim-təsərrüfat sahəsi istifadəyə verilib, binanın ətrafında yaşıllaşdırma işləri aparılıb, 700-ə yaxın ağac və bəzək kolları əkilib.

Yeni tədris korpusunda gözləmə və konfrans zalları, 30 sinif otağı, linqafon, kompüter otaqları, laboratoriyalar, 13 inzibati otaq, mətbəx, yeməkxana, təlim üçün restoran və otel otağı, oxu zalı olan kitabxana, soyunub-geyinmə otağı, idman zalı mövcuddur. Təhsil ocağının geniş konfrans zalında həm rayon, həm də respublika əhəmiyyətli tədbirlər keçirmək mümkündür. 80 nəfərlik yataqxana və yeni tipli mini stadion şagirdlərin istifadəsinə verilib. Mərkəzin idman zalı müxtəlif tədris vasitələri ilə tam təmin edilib. Mərkəzin balansında əlavə olaraq 75 hektar tədris-təcrübə sahəsi var və 10-dan çox müasir kənd təsərrüfatı texnikası ilə təchiz olunub.

Qeyd edək ki, mərkəzdə ümumilikdə 980 nəfərin təhsil alması nəzərdə tutulub. Təhsil müəssisəsində regionun xüsusiyyətləri nəzərə alınmaqla, aqrar və turizm sektoruna aid ixtisasların hazırlanmasına böyük əhəmiyyət verilir. Hazırda mərkəzdə 19 ixtisas üzrə tədris aparılır və bu ixtisaslarda 457 şagird peşə öyrənir. Ümumilikdə 23 istehsalat təlim ustası, 14 nəfər pedaqoji heyət fəaliyyət göstərir.

**Varis YAQUBOV.**
**"Qəbələ"**

# 18 oktyabr Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günüdür

Azərbaycan xalqının qədim və keşməkeşli bir tarixi vardır. Dövlətçilik ənənələrimiz də xalqımızın özü qədər qədimdir. Ancaq, təbiətin əsrarəngiz güşəsində yerləşən, təbii sərvətlərlə zəngin, strateji cəhətdən çox əhəmiyyətli vətənimiz həmişə yadellilərin ələ keçirmək istədiyi məkan olmuşdur. XVII əsrdən başlayaraq Azərbaycanı ələ keçirmək istəyən qüvvələr «parçala, hökm et» düsturunu tətbiq edərək Azərbaycanda mərkəzi dövlət yaranmasına imkan verməddilər və vətənimizi bir birilə daim çəkişən xanlıqlara böldülər. Xanlıqların bir hissəsi İrana, bir hissəsi Türkiyəyə, bir hissəsi Rusiyaya bağlı idi və öz hakimiyyətlərini saxlamaq üçün həmin dövlətlərə bac-xərac verirdilər.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində çar Rusiyası ərazilərini cənuba doğru genişləndirmək üçün işğalçılıq hərəkatını genişləndirdi. Çar Rusiyasına müqavimət göstərmək üçün xanlıqlar birləşmək əvəzinə, birbirilə ədavəti daha da şiddətləndirirdi.

Rusiya cənubi Qafqazı ələ keçirmək üçün Turkiyə və İranla vaxtaşırı müharibələr aparırdı.

İranla aparılan müharibələrin nəticəsi olaraq 1813-cü ildə şimali Azərbaycanın bir hissəsi, 1828-ci ildən sonra isə Araz çayından şimaldakı bütün Azərbaycan əraziləri Çar Rusiyasının əsarətinə keçdi.

XX əsrin əvvəllərində dünyada başlayan milli azadlıq və despotizmə qarşı mübarizə Azərbaycan xalqına da təsirsiz ötüşmədi. Çar Rusiyasında 1917-ci ildə fevral burjua və oktyabr sosialist inqilabları baş verdi: Çar üsul idarəsi tarixə qovuşdu. Yaranmış şəraitdən istifadə edən Çar Rusiyası tərkibinə zorla qatılmış xalqlar öz müstəqil dövlətlərini qurdular.

1918-ci ilin may ayının 28-də Azərbaycan da öz müstəqilliyini elan etdi. Ancaq xarici müdaxilələr, daxili çəkişmələr nəticəsində Azərbaycan Xalq Cumhuriyyəti cəmi 23 ay yaşadı. 1920-ci ilin aprelin 28-də Azərbaycan yenidən, bu dəfə Sovet Rusiyası adlanan imperiyanın tərkibinə qatıldı. Sonralar SSRİ adlanan bu imperiya da xalqlar və millətlər arasında olan ayrı-seçkilik və xarici müdaxilə səbəbindən 70 il ömür sürvü.1991-ci ildə SSRİ dağıldı. Xalqımız bu vaxta qədər azadlıq uğrunda çox qurbanlar vermiş, 1937-38-ci illərin repressiyasını, 20 Yanvarı hadisələrini yaşamışdı. Ona görə də 1991-ci ildə xalq bütünlüklə meydanlara axışaraq hakimiyyətdən müstəqqilik tələb edirdi.

Xalqın tələbi nəticəsində 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul etdi. 1991-ci ilin 29 dekabrında müstəqilliklə əlaqədar ümumxalq səsverməsi keçirildi. Səsvermə hüququ olan əhalinin 95 faizinin iştirak etdiyi referendumda xalq yekdilliklə respublikanın dövlət müstəqilliyinə səs verdi.

Müstəqilliyi qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək qorxusu ilə üzləşdi. Bir tərəfdən erməni silahlı qüvvələrinin təcavüzü, digər tərəfdən hakimiyyətdəkilərin səriştəsizliyi ölkəmizin müstəqil dövlət kimi dünya xəritəsindən silinməsi təhlükəsi yaratmışdı.

Lakin böyük siyasətçi Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı bu təhlükəni sovuşdurdu.

Ulu öndərin dahi uzaqgörənliklə həyata keçirdiyi siyasət Azərbaycanın müstəqilliyini «daimi dönməz və sarsılmaz» etdi. Dahi rəhbərin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün müstəqil Azərbaycan həm siyasi həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.

**Qüdrət SƏMƏDOV.**
**«Qəbələ»**